**MEHDİ SEYİDZADƏ**

# AĞACLARIN SÖHBƏTİ



**BAKI**

**GƏNCLİK-1987**

## DAĞLAR

Dərələrin çox dərin,
Köhlən buludlu dağlar!
Suları buzdan sərin,
Ey şabalıdlı dağlar!
Döşü güllü, çiçəkli,
Yoncalı,biçənəkli,
Meşələri tənəkli,
Moruqlu, tutlu dağlar.
Bülbüllərin gülşəni,
Maralların məskəni,
Qəhrəmanlar vətəni,
Ey qartal yurdlu dağlar.

## GÖYDƏ ÜZƏN GƏMİ

Mavi göydə süzür gəmi,
Gəminin var dağ görkəmi.
Ulduzların arasında
Xatırladır bir aləmi.

Ağ ulduzlar dalğa-dalğa,
Səpələnir sola-sağa.
Təyyarəçi kosmonavtlar
Salam verir bizim xalqa.

Olsanız da, göylər, dərin,
Şöhrətini görün Yerin.

Ay ulduzlar, şahid olun
Qüdrətinə SSRİ-in.

## XƏZƏR

Xəzər, Xəzər, coşğun Xəzər!
Dalğan göyərçinə bənzər.
Səhər, axşam qucağında
Gəmi üzər, qayıq gəzər.

Dənizçilər üzə-üzə,
Sularında gəzə-gəzə,
Doğma qardaş ellərindən
Pay gətirir hər gün bizə.

Dənizçilər bilməz tufan,
Bilməz yağış, bilməz duman,
Sənin doğma sularında
Keşik çəkir hər bir zaman.

## BƏNÖVŞƏ

Yazda açırsan,
Ətir saçırsan,
Yerin — bağ, meşə,
Gözəl bənövşə.

Zərif ətrin var
Sənin, bənövşə.
Sevir uşaqlar
Səni həmişə.

Bağa girəndə.
Bağban dərəndə
Qonursan döşə,
Gözəl bənövşə.

Zərif ətrin var
Sənin, bənövşə.
Sevir uşaqlar
Səni, bənövşə.

## QAQARİNLƏ GÖRÜŞ

Müəllim səhər-səhər
Verdi bizə şad xəbər.
Söylədi: — Ulduzların
İlk sirdaşı Qaqarin
Sizə qonaq gələcək.
Hamımız çox sevincək,
Əlimizdə gül-çiçək
Gözləyirdik qonağı.
Bürümüşdü otağı
Gurultulu səsimiz,
Şənlik eləyirdik biz.
Qaqarin gəldi... Birdən,
Yüyürüb tez yer-yerdən,
Dövrəyə aldıq onu;
Elin şanlı oğlunu.
Alqışladıq sevinclə,
Qaqarin gülər üzlə,
Görüb bizi sevindi.

Dedi: — Uşaqlar, indi,
Dinləyin, sizinçin mən
Söhbət açım göylərdən...
Söylədik danış, danış,
Göylərlə olaq tanış.
O dedi: — Qalxıb yerdən
İlk dəfə mən göylərdən,
Gördüm geniş dünyanı.
Gəzdim bütün hər yanı,
Göy deyilən dənizdə
Sehirli gəmimizdə
Ulduzları öyrəndim,
Gəmimlə yerə endim.
Bu olsa da ilk səfər,
Məndən sonra igidlər
Mavi göylərə uçub,
Göyün sirrini açıb.
Göz qoyub hər ulduza,
Qayıdıb yurdumuza.
Bir gün gələr ki, siz də
Öz kosmik gəminizdə,
Göyləri yara-yara
Uçarsız ulduzlara.
Söylədik: — Əmi, sağ ol!
Göylərə sən açdın yol.
Maraqlıdır  səfərin.
Çox böyükdür hünərin.
Sonra coşğun həvəslə,
Nəğmə dedik gur səslə.

## QARANQUŞUM

Qaranquşum yaz gələndə
Uçub gəlir bizim kəndə,
Verir bahar müjdəsini
Səhər-səhər dan sökəndə.
Bizim yerin havasından,
Bağımızın səfasından
Xoşlanır şən qaranquşum,
Çıxır tez-tez yuvasından.
Qaranquşum uçub bağda,
Nəğmə deyir hər budaqda,
Hərdən qonur eyvanıma,
Hərdən olur çox uzaqda.

## QIŞ BABA

Keçdi dəniz, aşdı dağ
Gəldi bizə bir qonaq.
Saçları qardan dumağ,
Söylədik: alqış, baba,
Şaxtababa, qış baba!
Çöldə çıxıb qar dizə,
Yolka qonaqdır bizə.
Nəğmə deyib üz-uzə
Söylədik: alqış, baba,
Şaxtababa, qış baba!
Burda verib əl-ələ,
Oynayırıq bax belə
Səs yayılır hər elə:
Ay sənə alqış, baba,

Şaxtababa, qış baba!

### QUZUM

Yaz gəlib, coşur sular,
Çiçəklənib arzular.
Yayılıb çölə, düzə
Körpə-körpə quzular.
Quzum, gəl, ay quzum, gəl,
Ay mənim yalqızım,gəl,
Sənin zərif boynuna
Zınqırovlar düzüm, gəl.
Mən gəzirəm çəməndə,
Yoldaş ol mənə sən də,
Duyaq yazın ətrini
Nərgizdə, yasəməndə.
Quzum, gəl, ay quzum, gəl,
Ay mənim yalqızım, gəl.
Sənin zərif boynuna
Zınqırovlar düzüm, gəl.

### KƏPƏZ

Dümağdır başın, Kəpəz,
Bilinməz yaşın, Kəpəz,
Almaz kimi parlayır
Daima qaşın, Kəpəz.
Timsalısan qüdrətin,
İlkisən təbiətin,
Şah əsəri yarandın

Əzəl gündən xilqətin.
Sevib səni ərənlər,
Yolunda can verənlər,
Sənə könül bağlayıb
Camalını görənlər.

## ƏSMƏ, KÜLƏK!

Bağçamızda salmışıq lək,
Əkmişik biz hər rəng çiçək.
Əsmə, külək, əsmə, külək!
Güllərimiz solub gedər,
Zəhmətimiz olar hədər.
Ayna kimi safdı Xəzər,
Günəş saçıb sulara zər.
Əsmə, külək, əsmə, külək!
Dəniz çoşub-dalğalanar.
Mavi sular çalxalanar.

Gəzirik biz yaşıl bağda,
Çox meyvə var hər budaqda.
Əsmə, külək, əsmə, külək!
Tökmə körpə yarpaqları,
Ağacların olmaz barı.

## ALMA

Ağ alma, göyçək alma,
Açmısan çiçək, alma.
Bağda sənə baxmayıb,
Biz necə keçək, alma!

Ağ alma, sarı alma,
Bağların barı alma,
Şirin-şəkər kimisən,
Bax mənə sarı, alma.

Ağ alma, qızıl alma,
Saplaqdan üzül, alma,
Bizə qonaq gələndə
Boşqaba düzül, alma.

## YAĞIŞ

Ağacların canı yağış,
Tarlaların qanı yağış,
Göydən yerə töküləndə
Tutursan hər yanı, yağış.

Yağ, torpaqlar olsun sulu,
Yaşıl bağlar olsun sulu,
Səndən fayda gəlsin elə,
El götürsün bol məhsulu.

Şırhaşırla yağ, ay yağış!
Bərəkətli olsun tarla.
Deyək sənə: alqış! Alqış!
Bağlar yayda dolsun barla.

## SARMAŞIQ

Sarmaşığam, sarmaşığam,
Çəmənlərə mən aşiqəm.

Sarılaram budaqlara,
Bağçalara yaraşığam.

Çiçəklərim çəhrayı, ağ,
Məskənimdir hər bağça-bağ.
Yaz olanda dəstə-dəstə
Quşlar gəlir mənə qonaq.
Çəpərləri mən aşıram,
Eyvanlara dırmaşıram.
Gülşənlərə, çəmənlərə
Görün necə yaraşıram.

## UÇUN, QUŞLAR

Uçun, quşlar, bizim bağa,
Cəh-cəh vurub oxumağa.
Sıx yarpaqlı ağaclarda
Qonun yaşıl bir budağa.

Bənövşələr pıçıldaşır,
Sizə nəğmə çox yaraşır.
Quşlar nəğmə oxuyanda
Sevincimiz aşır-daşır.

Çiçəklənib gülöyşə nar,
Çiçəklənib şaftalılar.
Uçun, quşlar, bizim bağa,
Nəğmə deyin gəlib bahar.

## QIZILGÜL

Qızılgülüm açıb qönçə,
Yarpaqları incə-incə.
Ətir yayır hər tərəfə
Bağçamızda meh əsincə.

Var bağçada hər rəng çiçək
Gül hamıdan olur göyçək.
Gülür bağda bahar çağı,
Söyləyir: gəl ətrimi çək,

Bağda gördüm hər rəngini
Sevdim gülün qəşəngini,
Mən ətrindən aldım gülün
Bu nəğmənin ahəngini.

## MARAL

Maral çıxdı bərəsindən,
Yaşıl şamlar dərəsindən,
İki körpə quzuları
Atılırdı dövrəsində.

Maral gördü dağda çeşmə,,
Ovçu, ona yaxın düşmə.
İçsin maral sərin sudan,
Ürəyini vurub deşmə.

Maralımın yeri bağça,
Buynuzları haça-haça
İnsaf olmaz ovçularda,
Vurar, qoymaz maral qaça.

## LAYLAY

Yat, ay mənim körpə quzum,
Yat, saçları ipək quzum.
Laylay, balam, a laylay,
Laylay, gülüm, a laylay.

Pəncərədən boylanıb ay,
Yat mən sənə deyim laylay.
Yat, tərpədim beşiyini,
Çəkim sənin keşiyini.

Laylay deyim, yatasan sən.
Qızıl gülə batasan sən.
Laylay, balam, a laylay,
Laylay, gülüm, a laylay.

## QAYIQ

Ağ kartondan bacımla mən
Düzəltmişik üzən qayıq.
Görün, necə açıb yelkən
Göy sularda gəzir qayıq.

Əsir külək sərin-sərin,
Mavi sular dalğalanır
Qucağında ləpələrin. —
Qayığımız yırğalanır.
Söyləyirik: — Qayıq, dayan!
Qulaq asmır sözümüzə.
Qüvvət alır dalğalardan,
Qayıq gedir üzə-üzə.

## OYNAQ TOPUM

Oynaq topum,oynaq topum,
Əlvan rəngli, qıvraq topum,
Atdım tutdum, düşdü yerə,
Qaçdı-getdi birdən-birə,

Oynaq topum, düşdün yola,
Döndün sağa, döndün sola.
Uzaqlaşma məndən, topum,
Qaçma, dayan səni tutum.

## DƏN VER MƏNƏ

Pəncərəmə qondu kiçik
Bir sərçəcik, dedi: cik, cik
Dən ver mənə, dən ver mənə.
Acımışam: cik, cik, cik, cik.
Hər tərəfə yağıbdır qar,
Ağappaqdır düzlər, dağlar.
Dən ver mənə, cik, cik, cik, cik.
Nə dənim var, nə yuvam var!..
Sərçəciyə mən verdim dən.
Dedim: uç gəl bura hərdən.
Evimizdə sən qonaq ol.
Sərçə dedi: cik, cik, sağ ol.

## BAHAR

Gəldi bahar,
Əridi qar,
Sel qaynaşdı,
Çaylar daşdı,
Güldü düzən,
Yaşıl çəmən.
Göyçək-köyçək
Açdı çiçək.

## BAYRAM ŞƏNLİYİ

Mən oyanıb, gördüm səhər
Gün boylanıb şəfəq yanır.
Çoşur-daşır bizim şəhər,
Al bayraqlar dalğalanır.
Bildim gəlib Oktyabr.
Bəzənibdir bütün hər yer,
Bu bayramın şərəfinə
Sevinc, şadlıq gəldi mənə.

Dostlarımla çıxdıq birgə
Gəzdik günəş küçələrdə.
Adam gördük cərgə-cərgə,
Dəstə-dəstə biz hər yerdə.

Mən, Xuraman, Sevinc, Yaşar
Keçən zaman meydançadan
Əlimizdə al bayraqlar
Oxuyurduq çox ucadan

Oktyabr, əziz bayram!
Ellər səndən alır ilham.
Sən azadlıq bayramısan
Uşaqlardan sənə salam!

## BELƏ UŞAQLAR DA VAR

Dərslərini öyrənməyib
Oynamışdı tənbəl oğlan.
Yorulmuşdu bütün günü
Küçələrdə oynamaqdan.

Xəlvət girib yatağına
İstəyirdi erkən yata,
O tənbəlin məqsədini
Dərk eləyib dedi ata:
— Gündəliyi gətir baxım
Bir həftəlik qiymətinə;
Fikirləşib oğlan gördü
İşi düşüb çox çətinə.

Bu həftə də «iki» alıb
Dərslərindən dönə-dönə
«İki»ləri görsə ata
Danlayacaq onu yenə.

Gündəlikdən bir səhifə
Cırıb atdı utanmadan,
İstədi ki, gözgörəsi
Atasına desin yalan.

Koridorda qoyulmuşdu
Yaraşıqlı böyük ayna
Oğlanın bu hərəkəti
Əks olunub düşdü ona.

Ata alıb gündəliyi
Baxıb dedi: — Ay oğul, sən
Nahaq yerə yalan satıb
Belə çirkin iş görürsən.

Oğlan bilib nöqsanını
Başa düşdü çox dərindən,
Kövrəkləndi,yanağına
Yaş süzüldü közlərindən.

## DOSTUM

Mənim bir dostum var ki,
Ayrılmır ondan ürək.
Söhbət edib görüşək
Dostumla hər gün gərək.
Maraqlı söhbətləri,
Necə də şirin olur.
Sahilsiz dəniz qədər
Sözləri dərin olur.
Açır yerin sirrini,
Öyrədir ulduzları.
Təsvir edir payızı,
Yayı, qışı, baharı...
Çaylardan, dənizlərdən,
Bulaqlardan danışır,
Meşələrdən, düzlərdən,

Yaylaqlardan danışır.
Onun böyük hünəri
Dağlar qədər qəlbidir.
Hər alimin,ədibin
Qəlbi onun qəlbidir.
Kim sevməz belə dostu —
Ki, var min bir hikməti.
Kimin olmaz kitaba
Hörməti, məhəbbəti!

## BAHAR NƏĞMƏSİ

Bir quş uçdu bizim bağa,
Səhər-səhər oxumağa.
Qondu yaşıl bir budağa
Dedi: közəl bahar kəlir.

Gunəş küldü, əridi qar,
Yerdən köyə qalxdı buxar...
Coşan sellər, daşan çaylar
Dedi: gözəl bahar gəlir.

Çiçəkləndi hər dağ, meşə,
Qızıl lalə qondu döşə.
Pıçıldayıb göy bənövşə
Dedi: gözəl bahar gəlir.

Çoban qalxdı bir yaylağa,
Sürüsünü yaydı dağa,
Baxdı sola, baxdı sağa
Dedi: gözəl bahar gəlir.

Tütəklərin incə səsi,
Kəkliklərin şən nəğməsi,

Bulaqların zümzüməsi
Dedi: gözəl bahar gəlir.

Uçan bulud, çaxan şimşək,
Yağan yağış, əsən külək
Təbiəti duyan ürək.
Dedi: gözəl bahar gəlir.

## MEŞƏLƏR

Nə gözəl, nə safalı
Olur bizim meşələr,
Ətir saçır hər yana
Lalələr, bənövşələr.

Yer yaşıl, göylər yaşıl,
Yarpaqlar pıçıldaşır,
Gəzdikcə meşədə mən
Sevincim aşıb-daşır.

Görürəm ki, ağaclar
Verib burda baş-başa.
Ayna sular axdıqca
Çırpınıb dəyir daşa.

Dağılıb səpələnir
Ətrafa ulduz kimi.
Burda hava saf olur,
Sərin olur buz kimi.

Eşidirəm hər yandan
Böcəklərin səsini.

Quşların könülaçan
Sevimli nəğməsini.

Əsən külək də hərdən
Sanki gözəl ney çalır.
Başımın üzərindən
Göyə qartal ucalır.
Qaralır hava birdən,
Tutulur göyün üzü,
Elə bil ki, bir anda
Gecə udur gündüzü.

Şiddətli yağış yağır,
İldırımlar gurlayır,
Sonra yenə üfüqlər,
Yaqut kimi parlayır.

Meh əsir yavaş-yavaş,
Süzülür göydən bulud,
Bürüyür hər tərəfi
Yenə dərin bir sükut.

Yer yaşıl, göylər yaşıl,
Yarpaqlar pıçıldaşır,
Gəzdikcə meşədə mən
Sevincim aşıb-daşır.

## YAY

Xəzərin sahilində
Görünür hər yan açıq.
Qurulmuş sahil boyu
Neçə-neçə alaçıq.
Ağ yelkənli qayıqlar,
Üzür mavi sularda.
Uzaqda qağayılar
Süzür mavi sularda.

Günəşin işığından
Qum yanır, parıldayır.
Dalğalar coşur bəzən,
Səs salır, guruldayır.

Bəzən sahili öpür,
Narın-narın ləpələr.
Bir tərəfdə uzanmış
Gülərüzlü körpələr.

Bir yanda tunc bədənli
Gənclər üzür dənizdə.
Bir sevinc, şadlıq hissi
Duymaq olur hər üzdə.

Yay fəsli hər ağacda
Görünür bir rəng meyvə.
Talvarlarda meynələr
Kölgə salır hər evə.

Gözəl püstə ağacı
Ətrafa ətir yayır.

Budaqların üstündə
Dəcəl quşlar oynayır...

## QIZIL YARPAQLAR

Kükrəyib Xəzan yeli
Gəzir yenə hər eli —
Payızdan verir soraq,
Əsir hər şax, hər budaq.
Sarı yarpaq titrəyir,
Son günüm çatıb deyir,
Dumana bax, dumana!
Heç gəlməzdi gümana
İpək tülə bənzəsin,
O daqları bəzəsin.
Ağaclarda ağ alma,
Qırmızıynaq alma
Gözləyir onu dərim,
Evlərə pay göndərim.
Heyvalar var sapsarı,
Baxırlar mənə sarı.
Yetişib gülöyşə nar,
Az qalıbdır düşə nar.
Tökülür qızıl yarpaq.
Bəzənir qara torpaq.
Çəmənlərdə, gülşəndə
Yarpaq suya düşəndə
Həsrətlə baxır bağa.
Axıb gedir uzağa.

**OĞLUM, BAHARDIR!**

Bir dəfə səhər
Eşitdim gözəl,
İncə nəğmələr;
Gördüm həyətdə
Eyvana qonmuş
Ötür sevinclə
Gözəl qaranquş.
Dərin yuxudan
Oyanıb meşə,
Könül oxşayır
Zərif bənövşə.
Ağaclar açıb
Rəngbərəng çiçək,
Hər yan gözəldir
Hər tərəf göyçək.
Əriyib uca
Dağların qarı,
Sellər çoşdurur
Bütün çayları.
Keçir dərədən
Duman tül kimi,
Şəfəqlər yanır
Qızılgül kimi.
Göydə qatarla
Durnalar süzür.
Göldə yaşılbaş
Sonalar üzür.
Narın bir yağış
Çilənir yerə,

Çöllər bənzəyir
Yaşıl məxmərə.
Soruşdum: — Ana,
Baxdım hər yana,
Gördüm bənzəyir
Bir gülüstana.
Nədən hər şeydə
Gözəllik vardır?
Anam söylədi:
— Oğlum,bahardır!

## YAXŞI YOLDAŞ

Bir istirahət günü
Küçədən ötən zaman,
Ramizlə qarşılaşdı
Məktəb yoldaşı Zaman.
Ramiz böyük sevinclə
Zamana salam verdi.
Acıqlı baxıb Zaman
Dostundan üz çevirdi.
Çox təəccüblə Ramiz
Zamana dedi: — Nə var?
Niyə qaşqabağından
Yağır qara buludlar?
Mən ki, sənə yamanlıq
Etməmişəm, əzizim!
Aramızda yoldaşlıq,
Məhəbbət olmuş bizim.
Çalışmışam gül qədər

Məndən inciməyəsən,
Hiss edirəm,qəlbində
İnciklik var deyəsən.
Bunun səbəbi nədir?
De ki, gizli qalmasın!
Heç olarmı dost-dostun
Salamını almasın?
Zaman dedi: — Sınaqdan
Çıxartdım səni dünən,
Bərk ayaqda bir kömək
Görə bilmədim səndən.
Coğrafiya dərsini
Soruşanda müəllim,
Hazır deyildim dərsə,
Bağlandı ağzım, dilim,
Gözümü zillədim ki,
Dərsi deyəsən xəlvət.
Sakit baxıb vermədin
İşarəmə bir diqqət...
İndi özün düşün bir,
Dostluğumuz tutarmı?
Bərk ayaqda yaxşı dost
Dostunu unudarmı?
Zamandan bu sözləri
Eşidib dedi Ramiz: —
Bir sinifdə oxuyub
Yaxın dost olmuşuq biz.
Bilmədiyin dərsləri
Əgər xəlvət desəm mən,
Dost deyil, gərək məni

Sən bir düşmən biləsən,
Çünki tənbəllik edib
Gəzərsən boş-boşuna,
Bənzəyərsən inan ki,
Sən bir tutuquşuna...
Zaman xəcalət çəkdi
Ramizin sözlərindən
Peşmanlıq hiss olundu
Yaşarmış gözlərindən.

## ZAQATALA MEŞƏLƏRİ

Göz baxdıqca dağdır, meşə...
Köpüklənən sular daşır.
Zümrüd kimi yaşıl meşə
Sərin bulaq çox yaraşır.

Baş çəkibdir göyə qovaq,
Bəzəyibdir hər yamacı.
Şabalıdlar açıb yarpaq,
Ətir saçır qoz ağacı.

Mərcan kimi hər budaqda
Parıldayır əlvan zoğal.
«Nə qüdrət var bu torpaqda?»
Təbiətdən etdim sual.

Dedi: «Sığmaz min dastana
Bu yerlərin şeriyyəti,
Kim gəlsə bu gülüstana
Duyar dərin şeriyyəti!»

## QUŞCUĞAZ

Səhər günəş doğmadan,
Göydən çəkilib duman.
Çəmənlərdə, gülşəndə
Güllərə şeh düşəndə
Gülnar gəzirdi bağda.
Gördü yaşıl budaqda
Əyləşib bir qəşəng quş,
Qanadı rəngbərəng quş.
Qız yavaş-yavaş gəldi
Quşa tərəf yönəldi,
Yapışdı ləyindən.
Düşündu ki, quşu mən
Salaram bir qəfəsə,
Dən verərəm, həvəslə —
Gələr nəğmə oxuyar.
Diqqətlə baxdı Gülnar.
Gördü ki, qanadından
Quşcuğazın axır qan.
Qızın bulandı ovcu
Quşu salıb bu hala.
O qoymadı zavala
Getsin yazıq quşcuğaz.
Gülnar düşündü bir az,
Quşu evə apardı
Qanadını bərk sardı.
Bir həftə evdə qaldı.
Yaralı quş sağaldı.
Gülnar quşu buraxdı.
Quş uçdu, Gülnar baxdı.

Dedi: — Uç-uç göylərə!
Get yuvan olan yerə:
İsti yuvanda dincəl,
Yazda bizə qonaq gəl.
Oxuyaşıl bağlarda,
Çiçəkli budaqlarda.

## AĞACLARIN ŞİKAYƏTİ

Şikayət edir
Bağçalar-bağlar:
«Bizi incidir
Nadinc uşaqlar.
Harda gül görsə
Dəcəllər dərir.
Yaşıl bağlara
Çox zərər verir.
Nadinclər gəzir
Yaşıl bağları
Qırır, sındırır
Göy budaqları».
Göy yarpaq açmış
Körpə budaqlar
Deyir: «Qırmayın
Bizi, uşaqlar!
Boy atıb yayda
Dircəlirik biz.
Könül oxşayır
Yaşıl kölgəmiz.

Bağda gəzməyin
Bir qaydası var.
Ağac qırmasın
Gərək uşaqlar,
Bu dəcəllikdən
Gəlin əl çəkin,
Bacardıqca siz
Gül, çiçək əkin.
Bol ağac əksə
Uşaqlar əgər,
Bağ kimi olar
Hər kənd, hər şəhər».

## FƏRHADIN ETİRAFI

Fərhadı yatağında
Yuxu tutmur bu gecə.
O, yuxuya gedərdi
Yatağına girincə.
Bu axşam könlündə var
Nədənsə bir iztirab.
Hesabdan «üç» alıbdır,
Sıxır qəlbini əzab.
Daima dərslərindən
Almışdır əla qiymət,
Müəllimlər bəsləyib
Ona dərin məhəbbət.
Bütün sinif əlaçı
Tanımışdır Fərhadı.
Divar qəzetlərində

Yazılır daim adı.
Bu gün ilk dəfədir ki,
Buraxıbdır bir nöqsan, —
Düşündükcə Fərhadın
Başından çıxır duman,
Gecə keçir... parlayır
Yaqut rəngli şəfəqlər,
Fərhad öz atasilə
Görüşə gəlir səhər.
Çıxarıb atasına
Göstərəndə cədvəli,
Bir üşütmə hiss edir,
Əsir Fərhadın əli.
Söyləyir ki: — Atacan!
Bağışla məni... Dünən
Yaxşı cavab verməyib
Hesabdan «üç» aldım mən.
Oğlunu həyəcanlı
Görüb mehriban ata,
Deyir ki: — Doğrudan da
Buraxmısan bir xata.
Oğlum, əla qiymət al!
Qoy olmasın bu nöqsan.
Bil ki, gerilik sevməz,
Heç vaxt qabaqcıl insan,
Günlərlə çalışaraq.
Göstərir böyük inad.
Axırda məqsədinə
Çatır yenə də Fərhad
Dərslərindən bu rübdə

Əla olur qiyməti.
Verir gözəl nəticə
Onun böyuk zəhməti.

## BAYLIQÇILAR

Gecədir, sakit gecə,
Dəniz yatıb, sular lal.
Bir iti xəncər kimi
Göydə parlayır hilal.
Uzaqda ağ buludlar
Suzülür üfüqlərdən,
Gümüş sular üstündə
Qanad açıb bir yelkən.
Balıqçılar qayıqla
Çıxıb yenə Xəzərə.
Şairanə görünür
Bu lövhə, bu mənzərə.
Balıqçılar dənizdə
Çalışır səhərəcən,
Başlarının üstündən
Keçir duman, keçir çən.
Əsər etmir onlara
Dənizin külələri,
Polad kimi möhkəmdir
Qüvvətli biləkləri.

Dan yeri ağaranda
Parlayır al şəfəqlər,
Alovdan köynək geyir
Üfüqlər səhər-səhər.

Ordan geri qayıdan
Qayığın ağ yelkəni,
Qürurla salamlayır
Əzəmətli ölkəni.

## QÜDRƏT

Gecədir,əsir külək,
Qopub şiddətli tufan.
Coşub-qaynayır Xəzər
Kükrəyən dalğalardan.
Dənizdə buruqların
Ətrafı köpüklənir.
Dalğalar bir dağ kimi
Yüksəlir göyə, enir.
O qorxunc ləpələri
Barkazlar aşa bilmir,
Dəniz buruqlarına
Gəlib yanaşa bilmir.
Qulaqları batırır
Suların coşğun səsi.
İki gündür dəyişmir
Qüdrətgilin növbəsi.
Dalğalar guruldayır,
Külək çapır atını.
Qüdrət yoldaşlarıyla
Yarır yerin qatını.
İşçilər dincəlməkçin
Budkaya girir hərdən.
Budur, uçur budka da,
Küləyin şiddətindən...

Hər taxtası dənizdə
Səpələnir bir yana,
İndi oğul istəyir
Bu soyuqda dayana!
Qüdrət yoldaşlarına
Mərdliklə verir ürək.
Deyir: — Külək yatınca
Burda çalışaq gərək.
Briqada çalışır,
Hünər göstərir işdə.
Böyük inad göstərir
Təbiətlə döyüşdə.
Külək yatmış... Gecəki
Tufandan yox bir əsər.
Günəşin şəfəqindən
Parlayır sakit Xəzər.
Budur, mazutlu barkaz,
Mavi suları aşır —
Gəlir Qüdrət işləyən
Buruğa yaxınlaşır.

Qüdrəti əvəz edir
Buruq ustası Aslan,
Görür ki, öz işindən
Dostlar qalmayıb bir an.
Fəhlələrin mərdliyi
Nəcib hissi, niyyəti,
Məğlub edir yenə də
Döyüşdə təbiəti.

## MEŞƏDƏ DÜŞƏRGƏ

Günəş çıxır, üfüqlər
Qızıl rəngə boyanır.
Öz şirin yuxusundan
Yaşıl meşə oyanır,

Hər tərəfə yayılır
Quşların şən nəğməsi.
Daşlarda köpüklənən,
Axan suların səsi.

Yaşıl otlar üstündə
Səfalı bir guşədə.
Pioner duşərgəmiz
Çadır qurub meşədə.

Oyanırıq yuxudan
Səhər quşlarla birgə.
İdman üçün çadırdan
Çıxırıq cərgə-cərgə.

Könülaçan nəğməmiz
Yayılır uzaqlara.
Qonur rəngbərəng quşlar
Şaxlara, budaqlara.

Otlara şeh düşübdür,
Ətir yayır çiçəklər.
Uçuşur qanadları
Tül kimi kəpənəklər.

Bəzən moruq yığırıq,
Bəzən dadlı çiyələk.

Çör-çöpdən ocaq çatıb
Bişiririk göbələk.

Kimi nağıl danışır,
Kimi kitab oxuyur.
Kimi tər çubuqlardan
Kiçik səbət toxuyur.

Hərə gündəliyinə
Yazır xatiratını.
Unutmarıq heç zaman
Düşərgə həyatını.

## İLQARIN BAĞÇASI

Bir qoca dayısı var
İlqarın Şüvəlanda.
Tətil zamanı İlqar
Hərdən kəndə gələndə,
Dayısının evində
Qalır üç-dörd gün qonaq.
Niyaz dayı bağbandır,
Salıb səfalı bir bağ.
Gülləri,çiçəkləri
Becərir sevə-sevə.
Yetişdirib bağında
Hər çürə dadlı meyvə.
İlqar kəndə gəlmişdi
Keçən il payız çağı,
Dayısıyla bərabər
Gəzirdi səhər bağı

Ətir saçır heyvalar,
Dəymişdi gülöyşə nar.
Baxdıqca ağaclara
Fərəhlənirdi İlqar.
Ona gülümsəyirdi
Al-əlvan qızılgüllər...
Bir neçə ağac əkdi
Niyaz dayı bir səhər.
Gördüyü bağça-bağla
İlqar çox maraqlandı.
Bağbanlığa qəlbində
Bir məhəbbət oyandı.
Dedi: — Ay dayı, mən də
Ağac əksəm göyərər?
— Bala, niyə göyərmir?
Hər nə əksən, bar verər.
Bu güllər, bu ağaclar
Başa gəlir zəhmətlə
Dayısının əlinə
İlqar baxdı diqqətlə.
Niyaz dayı İlqarı
Həvəsləndirsin deyə,
Üç-dörd meyvə ağacı
Verdi ona hədiyyə.
Dedi: — Get həyətdə ək,
Ağıllı balam İlqar.
Vaxt olar bar gətirər
Bu gördüyün ağaclar...
Şəhərə gələn kimi
O, fidanları əkdi.

Kübrə verib, suvardı,
İlqar çox zəhmət çəkdi.
Kün keçdi dolandı ay,
Yetişdi gözəl bahar.
Ağaclara bir səhər
Baxmağa gəldi İlqar.
Gördü ki, hər ağaca
Səpilib sanki inci
Ağappaq çiçək açıb.
Artdı onun sevinci,
İlqar öz bağçasına
Eləyirdi tamaşa.
Düşünürdü hər arzu
Zəhmətlə gəlir başa.

## İLK İMTAHAN

Həyatda ilk dəfədir
Verirsiniz imtahan.
Sizi çox sınaqlardan
Keçirər hələ zaman.

Unutmayın, həyatın
Belə bir qanunu var;
Əməksevən hər insan
Olur ancaq bəxtiyar.

Qabaqda addımlayır
Heç yorulmaq bilməyən,
Çətinliklər önündə
Sarsılıb əyilməyən.

Çalışın, qırılmasın
Bir an da inamınız!
Sizi yüksək zirvəyə
Qaldırsın qanadınız.

## QOCA BƏNNA

Budur, daşları yonub
Ev tikir qoca bənna.
Gündən-günə yüksəlir,
Baş çəkir göyə bina.
Öz işində çalışır
Qoca-gənc bir ürəklə
Səadəti bir sanır
O, şərəfli əməklə.
Yaratdığı evlərin
İncə, zərif naxışı
Heyran edir insanı.
Qamaşdırır baxışı...
Bir çox binalar tikib
Qoca bənna şəhərdə,
Gəzir onun söhbəti
Ağızlarda, dillərdə.
Zəhmətsevən ustanın
Böyük hünəri vardır,
Yaratdığı hər bina
Gənc nəslə yadigardır.

## POLADƏRİDƏN

Budur böyük zavodda
Qızğın alovlu odda,
Yayın isti çağında,
Ocağın qabağında
Durub kürəyi enli,
Qüvvətli,tunc bədənli
Usta polad əridir.
Milyonlardan biridir
Gördüyün sadə insan,
Əməksevən qəhrəman.
Yaradan olur qadir,
O sabahı yaradır.

## TAXIL ZƏMİLƏRİNDƏ

Meh əsir tarlalarda
Sünbüllər yırğalanır.
Sanki qızıl dənizi
Parlayır, dalğalanır.

Düzlər uzanıb gedir,
Göz baxdıqca zəmidir.
İşləyən kombaynlar
Elə bil ki, gəmidir.

Hamı görür tarlada
Zəhmətinin barını,
Bərəkətli düzlərdən
Yığdığı mirvarını.

Seyr etdikcə tarlanı
Bu söz gəlir ürəkdən:
Yer üzündə dəyərli
Nemət varmı çörəkdən?!

## DAĞIN QƏLBİ

Qarlı dağlar baş çəkir
Göylərə qəlbi olur;
Daşdan yaransa belə,
Dağın da qəlbi olur.
Dağın qəlbi bulaqdır,
Su verir sərin-sərin.
Qar kimi saf qəlbi var
Bulaqdan içənlərin.

## ZƏHMƏTİN BARI

Bağban ağac əkəndə,
Olur meyvəsi, barı.
Zəhmət çəkib çiçəkdən
Bal hazırlayır arı.

Kolxozçu yer şumlayıb
Tarlaya dən səpirsə,
Bircə ovuc buğdadan
Məhsul alır bir kisə.

## LALƏ

Qonağısan yaylağın,
Hər çəmənin, hər bağın,
Alov kimi yanırsan,
Xallı olur yanağın.

Adındır bahar qızı,
Donun olur qırmızı,
Açanda bəzəyirsən
Sevimli yurdumuzu.

# TƏMSİLLƏR





## TİKAN VƏ QIZILGÜL

Tikan çox təəccüblə
Söylədi qızılgülə:
Bir kolda, bir budaqda
Yetişirik biz dağda
Bəs səbəb nədir ki, sən
Hamıya sevimlisən,
Məni sevməyir heç kəs?
Gül dedi: deyil əbəs,
Bir yerdə olsaq da biz,
Ayrıdır xislətimiz.
Sən hər ələ batırsan,
İncidib qanadırsan.
Mən könül oxşayıram,
Qəlblərdə yaşayıram.

## DARGÖZ YAPALAQ

Bağda dargöz yapalaq
Əldən-ayaqdan uzaq
Yuva qurdu özünə.
İstəmədi gözünə
Görünsün bir göyərçin.
Durna, bülbül, bildirçin.
Gəldi bir bülbül,səhər
Oxudu şən nəğmələr.
Qəlbi od tutub yandı,
Yuvasından boylandı,
Yapalaq dedi:bülbül,
Səni coşdurubdu gül.
Oxuyursan həvəslə,
Səhər-səhər zil səslə.
Ancaq bilmirsən ki, mən
Xoşlanmıram nəğmədən.
Hər nəğmən yüz rəng olur»
Qulaqlarım dəng olur.
Bülbül dedi: yapalaq,
Dördgözlərin deyil bağ.
Burda hər cürə quş var,
Torağay, qaranquş var.
Hamı sevir nəğməni.
Gözəl səs yalnız səni
Narahat edirsə gəl,
Olma quşlara əngəl.
Get xarabə küncünə,
Nəğməkardan incimə.

## DOLÇA VƏ PİYALƏ

Piyalə dedi: dolça
Olsa da məndən uca,
Qabağımda əyilir,
Özünu kiçik bilir.
Baxsalar ona gendən
Deyərlər: qorxur məndən.
Dolça dedi: piyalə!
Uyma bu xam xəyalə.
Boşlar göstərər qürur,
Dolular olmaz məğrur.
Sən boşsan, mən doluyam.
Əyilsəm də uluyam.
Əksilməyir hörmətim,
Yaxşılıqdır niyyətim.

## NARYEYƏN UZUNQULAQ

Bir dəfə uzunqulaq
Gördü meyvəli bir bağ.
İtirmədi fürsəti
Bağa girdi xəlvəti
Bir ağacda vardı bar,
Alma, armud, heyva, nar..
Tez ağzını uzatdı,
Ulaq budağı dartdı,
Qabığıyla çeynədi,
Bütün bir narı yedi.
Gördü acıdır yaman,

Dedi: bilmirəm insan
Bu narı necə yeyir?
Hər yerdə tərifləyir
Belə acı meyvəni.
Dəhşət götürüb məni.
Dilləndi nar ağacı,
Dedi: nar deyil acı.
Qabığıyla yeyirsən.
Nara acı deyirsən.
Ulaq nədir, bağ nədir,
Nar nədir, ulaq nədir?

## OVÇU VƏ QUZU

Bir dəfə geçəyarı
Ovçu bir canavarı
Tutub gətirdi kəndə,
Bağlayıb saldı bəndə.
Bu ovçu bir ağappaq
Tükü ipəkdən yumşaq
Kök quzu saxlamışdı.
Həyətdə bağlamışdı
Quzu qurdla üz-üzə
Durub baxdı göz-gözə.
Qəlbinə qorxu çökdü,
Gündə ətini tökdü,
Bir quru sümük oldu.
Dəri ona yük oldu.
Quzunu körüb ovçu
Yandı qəlbinin içi.

Söylədi: ay quzum, sən
Vaxtında yemlənirsən.
Çoxdur otun, ələfin.
Əvvəllər sazdı kefin.
Səbəb nədir bu hala,—
Ömrün gedir zavala?
Ovçuya dedi quzu
Bilmək istəsən düzü,
Canavarı görəndə
Taqət qalmayır məndə,
Yaman qorxub hürkürəm,
Mən ətimi tökürəm.

## KƏPƏNƏK VƏ BAL ARISI

Arıya bir kəpənək
Söylədi: bu gül-çiçək
Mənə yaraşır ancaq.
Seyr elə, hüsnümə bax,
Gör necə rəngbərəngəm,
Güllər kimi qəşəngəm.
Rəngin sənin sapsarı
Bu sir-sifətlə, arı,
Dolanırsan gülşəni,
Çəmənləri, meşəni.
Arı dedi: kəpənək,
Düzdür, deyiləm göyçək.
Lakin qonduğum güldən
Bal hazırlayıram mən.

Hamı yeyir balımdan.
Xoşlanır bu halımdan.
Sən öz zövqünə görə
Qonursan çiçəklərə,
Bənzəsən də güllərə,
Faydan yoxdur ellərə.

## DARĞA—QARĞA

Quşların şahı tərlan,
Adlı-sanlı hökmran
Əmr edib dedi:—Qarğa,
Edirəm səni darğa!
Yaşıl meşədə, bağda,
Çəmənlikdə, yaylaqda,
İradənlə, hökmünlə
Nə istəyirsən elə.
Qarğa yaman sevindi,
Düşünüb dedi:—İndi
Var məndə böyük qüdrət.
Əlimə keçib fürsət
Gərək nəğməkar quşlar,
Bülbüllər, qaranquşlar
Gəlib yaşıl bağlarda
Oxumasın baharda.
Hər tərəfdə qarğalar
Qışqırıb desin qar, qar.
El zövq alsın səsindən
Qarğa vəzifəsindən
Olub elə bədgüman,
Lap çıxmışdı yadından

Onun miskin qarğalıq
Edən zaman darğalıq.
Oldu başqa həvəsdə...
Qondu bir gün leş üstə.
Elə göydən bu zaman
Şığıyıb gəldi tərlan.
Qarğa saymadı onu,
Pis oldu işin sonu.
Tərlan bərk acıqlandı.
Qəzəbdən qəlbi yandı,
Elə vurdu qarğanı,
Çıxdı lovğanın canı.

## LOVĞA ÇIRAQ

Çıraq gecə yanırdı,
Yaman lovğalanırdı.
Deyirdi: yaraşığım,
Könülaçan işığım
Yayılıbdır dünyaya.
Dəyər Günəşə, Aya.
Açıldı aydın səhər
Parıldadı şəfəqlər,
Göydə al Günəş yandı,
Yer üzü işıqlandı.
Yüz rəng aldı çiçəklər,
Uçuşdu kəpənəklər,
İşıqlandı hər otaq,
Ölkün görünüb çıraq
Söndü bütün nəfəsi,
İtdi getdi şöləsi.

## QARTAL QÜRURU

Bir qartalı məhbəsdə
Möhkəm dəmir qəfəsdə
Saxlayırdı bir ovçu
Çoxdu qartalın gücü,
Ancaq qanad açmağa
Dar qəfəsdə uçmağa
Tapmırdı heç bir imkan.
Sərçə uçub ağacdan
Gəldi qəfəsə qondu
Acı sözlə toxundu
Ürəyinə qartalın.
Dedi: necədir halın?
Gəlsənə qanad açaq,
Köydə bərabər uçaq?!
Görək kim çox yüksələr,
Yarışda qalib gələr,
Çəksə də çox iztirab,
Qartal vermədi cavab.
Çırpdı qanadlarını,
Pozmadı vüqarını.

## YARASA VƏ PƏRVANƏ

Yarasa pərvanəyə
Sual verdi ki: niyə
Cəzb edir səni işıq,
Olmusan oda aşiq?
Başına dolanırsan,
Bircə anda yanırsan.

Zülmət olsa da yerim,
Uzundur mənim ömrüm.
Pərvanə dedi: əgər
Qaranlıq içində sən
Yüz il ömür eləsən
Gedər həyatın hədər.

**QARANQUŞ VƏ BAYQUŞ**

Yetişdi bahar çağı,
Bəzədi güllər bağı.
Qaranquş bir budaqda
Oxuyan zaman bağda,
Bayquş dedi: qaranquş!
Bu gün qurtarıbdır qış.
Xəbər tutub bahardan
Gəlib çıxmısan hardan?
Mən bağdayam hər səhər,
Tutmuram yazdan xəbər.
Qaranquş dedi: bayquş,
Birdir sənə bahar, qış.
Ulamaqdır sənətin,
Yazı duyarsan çətin,
Vurulmuşam mən yaza
Xoş nəğməyə, şən saza.

ASLAN VƏ CEYRAN

Aslanın qarnı toxdu,
Şikara meyli yoxdu.
Düzdə gördü bir ceyran,

Hüsnünə oldu heyran.
Söylədi: ceyran qardaş,
Yaxın gəl, olaq sirdaş.
Vuruldum kamalına,
Hüsnünə, çamalına,
Gəl gecəni, gündüzu,
Gəzək səninlə düzü.
Sən zövq al bu çəməndən,
Mən də zövq alım səndən.
Ceyranın qəlbi safdı,
Düşündü heç insafdı
İnanmayım aslana,
Bu qüvvətli heyvana.
Aslan istəsə bu an
Salar məni ayaqdan.
Yoldaş oldu aslana,
Dostlar çıxdı cövlana.
Az gedib, üz getdilər,
Dağ aşıb, düz getdilər.
Aslan yaman acıdı,
Dişlərini qıcadı.
Dedi: ceyran, mənə bax,
Dostluq, qardaşlıq, ancaq
Belə həqiqət də var:
Ələ keçməyir şikar,
Qala bilmərik biz ac.
Əzizim, budur əlac.
Bu meydanda döyüşək,
Birimiz məğlub düşək,
Güclü gücsüzü yesin.

Yazıq ceyran nə desin,
Gücü çatmaz aslana,—
Qaça bilməz heç yana.

## SÖYÜD VƏ LİMON KOLU

Limon koluna söyüd
Verib bir səhər öyüd,
Dedi: az olur barın,
Başlanınca nübarın
Bitir bir neçə günə.
Ağac gərək öyünə
İl boyu meyvəsiylə,
Bar vermək həvəsiylə.
Əsər edib limona
Bu tənə, dedi ona:
—Mənə vermə çox öyüd,
Özün bar gətir, söyüd!

## ƏDABAZ MEYMUN

Ədabaz olar meymun.
Çıxarar hər cür oyun.
Adət edib nədənsə
Yamsılar kimi görsə.
Bir gün səhər meşədə
Xəlvətcə bir guşədə
Pələng uzanan zaman,
Meymun enib ağacdan
Pələngi yamsıladı,
Quyruğunu buladı.

Pələng kimi gözünü
Qıyıb, meymun özünü
Pələngə bənzədəndə,
Oyunbazlıq edəndə
Pələng yerindən qalxdı,
Vüqarla ona baxdı,
Getmək istədi ancaq,
Qaçıb ədabaz qoçaq
Onun yolunu kəsdi.
Pələng söylədi: bəsdi
Oldum sənə əyləncə!
Qəzəblə atdı pəncə
Elə vurdu meymunu,
Bitdi bütün oyunu.

**KİRPİ VƏ İLAN**

Kirpiyə dedi ilan: —
Gəl dost olaq yaxından!
Xəncər kimi bizini
At, mən görüm üzünü.
Artsın sənə hörmətim,
Çoxalsın məhəbbətim.
Kirpi dedi: çox gözəl,
Mən bizimi atım, gəl
Zəhərini at sən də,
İnam oyansın məndə.
İlan dedi: dişimdən,
Mən sancmaq vərdişimdən
Əl götürmərəm əsla,
Dağılsa bütün dünya.

Sancmaq olub vərdişim,
Zəhərsiz keçməz işim.

## TAMAHGAR QARĞA

Düzləri tutmuşdu qar,
Qarğa deyirdi: «qar-qar».
Sərçə axtarırdı dən.
Qarğanı görüb birdən,
Dedi: üç aydan bəri
Qar örtübdür hər yeri,
Qarıldayıb elə sən
Yenə «qar-qar» deyirsən.
Qarğa söylədi: qarsız
Ağaclar qalar barsız,
Meyvə görməzsən bağda,
Məhsul olmaz torpaqda.
«Cik-cik» eləyib sərçə
Qarğaya dedi: bircə
Ətəyindən tök daşı,
Məni sanma çox naşı.
Düzdür, qarda var fayda.
Ancaq sən qışda, yayda
Elə deyirsən «qar-qar».
Doymursan, ay tamahkar!

## CANAVAR VƏ TÜLKÜ

Bərk çovğundu, düzəndə
Ac qurd ovçün gəzəndə
Bir tülküyə rast gəldi,
Kefi yaman kökəldi.
Dedi: tülkü lələ, gəl!
Gətirib səni əcəl,
Rast gəlmisən ac qurda,
İşin bitəcək burda.
Tülkü dedi: canavar,
Bu yaxında bir at var,
Başınçın, on gün yesən
Bəsindir, gəl gedək sən,
Köhlən atı yerə sər,
Meydanda hünər göstər.
Ye, ağzın gəlsin dada.
Gör, nələr var dünyada!
Atı ovlasın deyə
Qurd qoşuldu tülküyə,
Gəldi at gəzən yerə,
Hücum etdi kəhərə.
Kəhər bir təpik vurdu,
Şil-küt elədi qurdu.
Tülkü qaçmaq istədi.
Kişnəyib kəhər dedi:
—Al, bu da sənin payın!
Tək qalmasın qurd dayın.
Elə vurdu tülkünü,
Yel sovurdu tükünü—
Hiyləkərin dörd yana.

Qurdla düşdü yan-yana.

## ƏQRƏB VƏ ÇANAQLI BAĞA

Girmişdi əqrəb bağa,
Gəlib çanaqlı bağa
Əqrəblə sirdaş oldu,
Dost oldu, qardaş oldu.
İki əziz, mehriban
Yoldaş bağda bir zaman
Birlikdə yedi, içdi.
Günləri çox şən keçdi.
Bir gün qopdu bərk tufan,
Külək dostları bağdan
Götürüb çox şiddətlə
Atdı geniş sahilə.
Əqrəb dedi: dostum, sən,
Üzüb çaydan keçərsən,
Mən burda qalaram tək.
Səndən ayrılmır ürək,
Olmuşuq yaxın həmdəm,
Qəlbimi sıxar dərd, qəm,
Bağa dedi: dostum, gəl,
Min arxama əlbəəl
Çaydan keçirim səni,
Burax yersiz qüssəni.
Gedək başqa bir bağa
Aldı mehriban bağa
Arxasına əqrəbi.
Bir az yol gedən kimi

Əqrəb sancdı dostunu.
Duyaraq bağa bunu
Dedi: ay üzü qara
Dost-dosta vurar yara?
Əqrəb dedi: əzizim,
Qara olsa da üzüm,
Sancmaq məndə adətdir,
Sanma bu ədavətdir.
Baş vurdu suya bağa.
Söylədi: əqrəb qağa,
Mənim də adətim bax,
Olub suya baş vurmaq.
Əqrəbi atdı suya
Bağa çıxdı quruya.

## BÜLBÜL VƏ ÇALAĞAN

Çalağan gəlib dilə,
Bir gün dedi bülbülə:
—Öyrət mənə də nəğmə,
Şövq ilə gəlim, dəmə,
Oxuyum, vurum çəh-cəh,
Dinləyən desin bəh-bəh...
Həmdəm olum güllərə,
Adım düşsün dillərə.
Bülbül dedi: çalağan!
Pəncəndə görünür qan.
Yırtıcılıqdır peşən.
Sənə yaddır bu gülşən.
Səndən nəğməkar olmaz,
Qızılgülə yar olmaz!

# POEMALAR



## GÖYƏRÇİN

Məğrur tərlanda
Belə adət var:
Öz şikarını
Göydə ovlayar.
Görsə bir yerə
Qonub bildirçin,
Kəklik, ya turac,
Ya da göyərçin,
Tərlan tez qonar
Onun yanına,
Bir lərzə salar
Əvvəl canına.
Vurub döşüylə
Qaldırar yerdən,
Cumar havada
Üstünə birdən.
Bir ağ göyərçin
Bir dəfə bağa
Uçaraq qondu
Yaşıl budağa.
İldırım kimi
Şığıyıb bu an,
Hardansa gəldi
Alıcı tərlan.
Göyərçin onu
Görüncə əsdi.



Bildi ki, nədir
Tərlanın qəsdi.
Süzdü tərlanı
Məhzun baxışla,
«Qu-qu» söylədi
O yalvarışla.
Arxın başında
Elə bu zaman
Beli əlində
Durmuşdu bağban.
Zavallı quşa
Yazığı gəldi,
Sapandı çəkib
Ora yönəldi.
Sürətlə aldı
Tərlanı nişan,
Vurub bağrını
Elədi şan-şan.
Birdən bu yandan
Çıxdı on atlı,
Köhlən atları
Şimşək qanadlı.
Ən qabaqdakı
Bir hökmdardı,
Almaz qılıncı,
Xəncəri vardı.
Görüncə tərlan
Sərilib yerə,
Ürəkdən çəkdi
Qəzəblə nərə:

«De görüm, bağban!
Nə cürətlə sən
Vurub tərlanı
Yerə sərmisən?
Bilmirdin məgər
Mənimdir tərlan?!
İndi yasında
Ağlayar anan!»
Şah əmr eylədi
Odun qalansın,
Bağban alovlu
Tonqalda yansın.
Nökərlər hamı
Baş əyib əmrə
Sürətlə atdan
Endilər yerə,
Odun gətirdi
Hərə bir qucaq,
Bağda qalandı
Böyük bir ocaq.
Göyərçin görüb
Bağbanı darda,
Rahat durmadı
Yaşıl bağlarda.
Tez qanadlanıb
Göyə yüksəldi.
Bağdakı arxın
Başına gəldi.
Qəlbində dosta
Kömək arzusu,

Aldı ağzına,
İki damcı su,
Böyük həyəcanla
O qanad çaldı,
Qayıdıb yenə
Göyə ucaldı.
Soruşdu ondan
Bir kök bildirçin:
«Hara uçursan?
Belə, göyərçin?»
Göyərçin dedi:
«İti caynaqdan
Qurtardı məni
Bu gün bir bağban.
Şah qəzəblənib
Onu yaxacaq.
Budur,qurulub
Bağda bir ocaq
Dosta köməkçin
Sözün doğrusu,
Mən də ağzımda
Aparıram su.
Odu söndürüm
Bəlkə birtəhər,
Bağbanın ömrü
Getməsin hədər.
O qurtarmışdır
Məni ölümdən
Mənim bu gəlir
Ancaq əlimdən!»

Dost, dost yolunda
Çalışsın gərək,
Dostçun hər zaman
Çırpınsın ürək.

## DƏYİŞİB ŞILTAQ QIZ

Günəş doğubdur səhər
Oyanıbdır körpələr.
Şıltaq qızsa bərk yatır,
Nənə onu oyadır.
Deyir:—Ay qızım, oyan
Gün keçib günortadan.
Qaralır qızın qanı,
Dartıb atır yorğanı.
Ağlayır deyir—Nədən,
Yatmaq istəyəndə mən
Oyadırsız yuxudan?
Üzünü yuyan zaman
Şıltaq edən qız yenə
Ağlayır dönə-dönə,
Gah deyir:—Sabun yoxdur,
Gah deyir:—Su soyuqdur.
Sabunu göstərirlər,
İsti su da verirlər.
O yenə edir şıltaq
Səsindən batır qulaq.
Deyir:—Krant paslıdır
Sabun nədən yastıdır...
Hirslənir birdən-birə
Fırçanı vurur yerə.

Körpələr səhər-səhər
Hamı yemək yeyirlər.
Şıltaq qızcığaz ancaq—
Yemir pendir, qayğanaq.
Bəyənmir öz payını,
İçmir şirin çayını
İncidir nənəsini,
Şıltaqlanır, qışqırır,
Vurub fincanı qırır.
Gəzməyə çıxan zaman
Şıltaq qız acığından
Əzir ipək donunu
Geyməyir paltosunu.
Mızıldayır, ağlayır,
Nə lentini bağlayır,
Nə taxır önlüyünü,
Hirslənir bütün günü
Şıltaq edən qız bir an
Əl çəkmir şıltağından.
Danışır lovğa-lovğa,
Deyir:—Yemirəm dovğa!
Bəyənmirəm bozbaşı!
İstəmirəm bu aşı!
Tutur qızın acığı,
Çırpır yerə qaşığı...
Çökübdür dərin gecə.
Yatır qaranquş, sərçə,
Yaşıl çəməndə, bağda.
Quşlar yatır budaqda.
Yatır buludlarda ay,

Küləklər deyir laylay.
Baxır göydən ulduzlar,
Yatır balaca qızlar.
Oyaq qalıbdır yalnız
Heç yatmayır şıltaq qız.
Nənə düşünür, gərək,
Qızı bağçaya verək.
Şıltaq qızı bu səhər,
Bağçaya gətirirlər.
Görür burda çox uşaq
Əvvəlcə edir şıltaq.
Sonra görür ki: Nərgiz,
Solmaz, İlham, Firəngiz,
Elman verib əl-ələ
Oynayır gülə-gülə.
Şıltaq edən qız birdən
Qaçır durduğu yerdən,
Qoşulur uşaqlara—
O kiçik qoçaqlara.
Dəyişibdir şıltaq qız,
İndi olub yaxşı qız.
Hər gün bağçaya gəlir,
Uşaqlarla əylənir.
Uzanır öz taxtında,
Yatır-durur vaxtında.
Yuyunanda körpələr
O da yuyunur səhər,
Vaxtında yeyir nahar
Geyinir təmiz paltar.
Gözəl nəğmələr deyir,

Şer də əzbərləyir.
Bəzəyir dibçəkləri,
Suvarır çiçəkləri.
İndi bu qıza heç kəs
Şıltaqçı deyə bilməz.
Dəyişib şıltaqçı qız—
Olubdu çox yaxşı qız.

## GÜNƏŞ BABA

*(nağıl )*

Saz götürüb, söz qoşan
Təbi Kür kimi coşan
Aşıq məclis bəzəyib,
Nağılda belə deyib:
Keçmiş qədim zamanda
Odlar yurdu Muğanda
Gülxar adlı qız vardı.
Çox zəhmətlə yaşardı.
İşləyirdi qış, bahar.
Rahatlıq bilmir Gülxar.
Odun yarırdı qışda.
Bərk qarda, bərk yağışda
Gedirdi dəyirmana.
Yazığın ögey ana
Danlayırdı üzünü
Ancaq doğma qızını
Sevirdi, oxşayırdı.
Pəri şən yaşayırdı.
Kefi-damağı çox saz
Hamıya edirdi naz.

Gülxar bir qaravaş tək
Xidmət edəydi gərək
Hər gün ögey bacıya,
Dözəydi hər acıya.
Nə desə gətirəydi,
Yerinə yetirəydi,
Əmrini birçə anda.
Bir gün qışda, tufanda
Bağlanıb bütün yollar.
Tutmuşdu hər yanı qar.
Hökm edib düzdə, dağda.
Qılınc çəkmişdi şaxta.
Pəri yerindən qalxdı,
Gözünü ovub baxdı
Təpə kimi ağ qara.
Dedi yazıq Gülxara: —
Gərək mənə bu gün sən
Bənövşə gətirəsən.
Gülxar dedi:—Ay Pəri,
Qar tutubdur hər yeri.
Örtülübdür dağ, meşə,
Belə qışda bənövşə
Tapılmaz, bahar deyil.
Çöllər laləzar deyil
Olsun indi gül-çiçək..»
Pəri söylədi:—Gərək
Gedib yerin altından,
Göyün yeddi qatından,
Bir bənövşə tapasan!..
Gülxar dedi:—Ay bacı,

Mənim halıma acı.
Birdəfəlik anla, bil,
Axı bu mükün deyil.
Qəzəblə ögey ana
Bağırıb dedi ona: —
Qaravaş azğın Gülxar
Səndə belə cürət var,
Kirişirsən də bəhsə?
Tapmalısan bir anda!
Pəri hər nə istəsə—
Yazıq Gülxar tufanda
Çox düzləri dolaşdı.
Qarda qalın iz açdı.
Meşə keçdi, aşdı dağ,
Sinəsində ağır dağ,
Qolu gücsüz, taqətsiz,
Ayaqları qüvvətsiz
Addımlayırdı dağda.
Birdən gördü uzaqda
Güclü bir ocaq yanır,
Hər tərəf işıqlanır.
Düşündü ki, birtəhər
Ocağa çatsam əgər
Bir az qızınaram mən,
Qurtararam ölümdən.
Dizinə qüvvət gəldi,
Oda tərəf yönəldi.
Təpələrdən yel kimi,
Dərələrdən sel kimi
Keçdi keçilməz yollar,

Gəldi yetişdi Gülxar
Ocaq görünən yerə.
Gördü burada çox uca,
Enlikürək bir qoca
Əynində oddan köynək,
Əlində tunc dəyənək
Əyləşibdir taxt üstə.
Yanında əl-əl üstə
On iki cavan durub,
Əmrinə boyun burub.
Bu on iki cavanın
Yenilməz qəhrəmanın
Üçünün paltarı ağ,
Başında qardan papaq.
Üçü geyinib yaşıl,
Parlayır işıl-işıl.
Üçü geyinibdir al,
Papaqlarıdır xal-xal.
Üçü geyinib sarı.
Heyrət sardı Gülxarı.
Gördü yanan atəşi,
O tanıdı Günəşi.
Ədəblə verib salam.
Sonra çox aram-aram
Dedi:—Ay Günəş baba,
Köynəyi atəş baba.
Yer üzü işığını,
Bütün yaraşığını
Səndən alır həmişə.
Şəfəqinlə dağ meşə,

Açır gül, açır çiçək.
Ellər olur sevincək.
Mənim halıma acı;
Əmr edir ögey bacı,
Qışın bu zamanında;
Belə çovğun anında.
Bənövşə tapım ona.
Qəzəblə ögey ana
Məni qovubdur düzə.
Hər yanı gəzə-gəzə
Bura gəlmişəm, gərək
Edəsən mənə kömək.
Günəş dedi:—Darıxma
Ürəyini gəl sıxma.
Bu arzun başa gələr,
İstədiyin düzələr.
Sonra geyimləri ağ
Başına qardan papaq
Qoymuş üç qəhrəmana
Dedi:—Keçin bu yana.
Yaşıl paltar oğlanlar,
Təravətli cavanlar
Siz duran yerə keçsin,
Qoy təbiət dəyişsin.
Qocanın bu əmrini
Alıb, gənclər yerini
Bircə anda dəyişdi,
Qış bitdi, tufan keçdi.
Gəldi qəlbaçan bahar,
Düzənlər oldu gülzar.

Çiçəkləndi bağ, meşə,
Hər yan oldu bənövşə.
Gülxar baxıb sevindi...
Günəş söylədi:—
İndi Arzu etdiyin qədər
Düzlərdən bənövşə dər.
Gülxar dedi:—Çox sağ ol
Sən həmişə parlaq ol,
Sevimli Günəş baba!
Köynəyi atəş baba!
İşıq saç bu ellərə,
Şadlıq ver könüllərə.
Qəlb açan yaşıl bağdan,
Çiçəklənən torpaqdan,
Bənövşə yığıb Gülxar,
Aşdı çox düzlər, dağlar,
Yetişdi evə, Pəri
Görüb bənövşələri,
Alıb heyrətlə baxdı
Sonra döşünə taxdı.
Şıltaq eləyib yenə,
Gülxara dedi:—Mənə
Bu an gedəsən gərək
Gətirəsən çiyələk.
Gülxar dedi:—Ay Pəri,
Qar bürüyüb hər yeri.
Qışın bu tufanında,
Bərk şaxta zamanında
Bağlanıbdır qapılar,
Çiyələkmi tapılar?

Çiyələk olar yayda,
İstilər düşən ayda.
Bağırıb ögey ana:
Qəzəblə dedi ona:
—Boş danışma, get, axtar,
—Çiyələk gətir, Gülxar!
Gülxar əlacsız qaldı.
Qəlbini qüssə aldı,
Üz qoydu düzənlərə,
Aşıb dağ, keçib dərə,
Baş vurdu hər obaya,
Gəldi, Günəş babaya
Hörmətlə verib salam.
Söylədi aram-aram:
—İşıqlı Günəş baba!
Köynəyi atəş baba!
Mənim halıma acı,
Əmr edib ögey bacı,
—Qışın bu zamanında
Belə çovğun anında
Çiyələk tapım ona.
Qəzəblə ögey ana
Qovubdur məni düzə.
Hər yanı gəzə-gəzə
Gəlmişəm bura qədər.
Əzib məni qəm, kədər.
Günəş dedi:—Darıxma
Qəlbini dərdlə sıxma,
Bu işin düzələcək.
Tapacaqsan çiyələk.

Sonra geyimləri ağ
Başına qardan papaq,
Qoymuş üç qəhrəmana
Dedi:—Geçin bu yana.
Al geyinmiş cavanlar,
Bu mehriban oğlanlar
Siz duran yerə keçsin,
Qoy təbiət dəyişsin.
Qocanın bu əmrini
Alıb, gənclər yerini
Bircə anda dəyişdi.
Qış bitdi, tufan keçdi
Yay gəldi, qızdı torpaq.
Meyvə gətirdi hər bağ.
Ağacları əydi bar.
Baxdı, sevindi Gülxar.
Gördü vardır neçə lək,
Yaxşı dəymiş çiyələk.
Çoxlu çiyələk yığdı.
Səfalı bağdan çıxdı,
Günəşə dedi:—Sağ ol,
Sən həmişə parlaq ol!
Ellərə bol işıq ver,
Bağlara yaraşıq ver.
Sonra yola düzəldi,
Öz evlərinə gəldi.
Alıb çiyələkləri,
Ləzzətlə yedi Pəri.
Şıltaq eləyib yenə.
Külxara dedi:—Mənə

Gərək gedib indi sən
Əncir də gətirəsən.
Gülxar dedi:—
Bu qarda
Qurd ulayır yollarda,
Hər yeri sarıb tufan.
Ənciri tapım hardan?
İndi deyildir payız,
Əncir yetişsin, ay qız?
Bağırıb ögey ana;
Qəzəblə dedi ona:
—Çıxararam gözünü,
Pərinin bir sözünü
Sən yerə salsan əgər.
Sıxdı qəlbini kədər.
Yola düzəldi Gülxar,
Aşdı düzlər, dolaylar
Keçdi neçə obanı,
Gəldi Günəş babanı
Salamladı hörmətlə.
Günəş dedi şəfqətlə:
—Nə olubdur, yenə sən,
Ay qızım, kədərlisən?
Gülxarın gözü nəmli,
Ürəyi dərdli, qəmli
Söylədi:—Günəş baba,
Köynəyi atəş baba,
Mənim halıma acı.
İndi də ögey bacı
Əncir yemək istəyir.

Mənə əmr edib deyir:
—Qışın bu zamanında,
Belə çovğun anında
Mən əncir tapım ona.
Qəzəblə ögey ana
Məni buraxıb düzə,
Çölləri gəzə-gəzə,
Gəlmişəm bura, gərək
Edəsən mənə kömək.
Günəş dedi:—Darıxma,
Qızım, qəlbini sıxma.
Bu işin də düzələr,
Diləyin başa gələr.
Sonra geyimləri ağ
Başına qardan papaq
Qoymuş üç qəhrəmana,
Dedi:—Keçin bu yana
Sarı paltar çavanlar,
Yaraşıqlı oğlanlar
Siz duran yerə keçsin,
Qoy təbiət dəyişsin.
Qocanın bu əmrini
Alıb, gənclər yerini
Bircə anda dəyişdi,
Qış bitdi, tufan keçdi.
Payız gəldi, bir bağda
Sıx yarpaqlı budaqda
Gülxar dörd əncir gördü.
Tez əncirləri dərdi.
Günəşə dedi:—Sağ ol,

Sən həmişə parlaq ol.
Yer üzünə işıq ver,
Aləmə yaraşıq ver,
Sonra sevinclə Gülxar,
Keçdi çox uzun yollar.
Evə gəldi ənciri
Görüb bağırdı Pəri,
Dedi:—Axmaq, mənə sən,
Dörd əncir gətirmisən?
Gülxarı ögey ana,
Danlayıb dedi ona:
Çox acgözlük var səndə,
Yəqin yolda gələndə
Ənciri aşırmısan.
Gülxar içdi and-aman,
Dedi:—Böyük bir bağda
Ağacda bir budaqda
Dörd əncir vardı, dərdim,
Gətirib sənə verdim.
Pəri qalxdı yerindən,
Dedi:—İndi gedib mən
Əncir taparam özüm.
Anası dedi:—Qızım,
Evdən çıxma, yollarda
Donub qalarsan qarda.
Şaxta tutub hər yeri,
Sözə baxmadı Pəri.
O dəm ayağa qalxdı,
Kürk geydi, əlcək taxdı.
Birbaş yola düzəldi,

Qarlı meşəyə gəldi
Gördü hər yan ağappaq,
Ağaclar qalıb çılpaq.
Nə heyvan var, nə də quş,
Meşə görünür bomboş.
Belə soyuq havada,
Quşlar yatıb yuvada.
Qəlbini həyəcan sıxdı,
Pəri meşədən çıxdı.
Keçdi neçə dağ, dərə,
Gəldi çatdı bir yerə.
Gördü ki, bir bucaqda,
Od parlayır ocaqda.
Qüvvət gəldi dizinə,
Getdi bir az qızına,
Gördü boyu çox uca,
Od köynəkli bir qoca
Əyləşibdir taxt üstə.
Ətrafında bir dəstə
İgid qəhrəman durur.
Pəri çox məğrur-məğrur,
Salam vermədi keçdi,
Taxt üstündə əyləşdi.
Günəş baba dedi:—Sən,
Ay qız, kimsən, nəçisən,
Gəlmisən bizim yurda?
Nə axtarırsan burda?
Qız dedi:—Sənə nə var,
Bu ellər, bu obalar
Qoca,sənindir məgər?

Eşidib acı sözlər
Günəş qəzəbdən yandı.
Yer başına dolandı.
Əmr etdi geyimi ağ,
Başına qardan papaq
Qoymuş üç igid cavan,
Qoparsın böyük tufan.
Qar sovrulub bir anda
Tufan qopdu hər yanda.
Çox güclü külək əsdi,
Ülgüclü külək əsdi,
Pərini aldı yerdən.
Səhraya atdı birdən.
Belə çovğunda, qarda
Pəri qalmışdı darda.
Artıq çökürdü axşam,
Evlərdə yanırdı şam.
Həyəcanla ögey ana
Yola çıxdı, hər yana
Baxdı gördü ki, Pəri
Nədənsə dönmür geri.
Üz qoydu çölə, dağa,
Qızını axtarmağa.
Düzdə qarla, qaranlıq
Edirdi hökmranlıq.
O nə qədər bağırdı,
Öz qızını çağırdı,
Gəlmədi heç bir cavab.
Çəkdi böyük iztirab,
Axır batdı nəfəsi

Daha çıxmadı səsi.
Açıldı aydın səhər,
Bilinmədi bir xəbər
Nə anadan, nə qızdan.
Keçdi çox uzun zaman...
Bu əhvalat ellərdə,
Dastan oldu dillərdə.
Çox kəndlərdə bu gün də
Aşıq toyda, düyündə
Danışır bu dastanı,
Elin söz gülüstanı,
Min tufan qopsa solmaz,
Heç zaman xəzəl olmaz.

## Kiçikyaşlı məktəblilər üçün

Redaktoru **Məmməd Namaz.**

Rəssamı **N. Babayev.**

Bədii redaktoru **N. Rəhimov.**

Texniki redaktoru **N. Şərifova.**

Korrektoru **G. Əsədova.**

İB № 2054.Yığılmağa verilmiş *20. 07. 87.* Çapa imzalanmışdır *9. 11.* ***87.*** Kağız formatı 70x90. Mətbəə kağızı № 2 Ədəbi qarnitur. Yüksək çap üsulu Şərti ç/v 3,22. Rəng. Şərti ç/v *3,36***.** Uçot nəşr v. *3,27***.** Tirajı 6.000. Sifariş № 852, Qiyməti 20 qəp.

Azərbaycan SSR Dövlət Nəşriyyat, Poliqrafiya və
Kitab Ticarəti İşləri Komitəsi.

“Gənclik" nəşriyyatı. Bakı, Hüsü Hacıyev küçəsi, 4. Mətbuat istehsalat sənaye birliyi, “Qızıl Şərq” mətbəəsi, Bakı, Həzi Aslanov küçəsi, 80.